“Kişilər üçün səflərin ən xeyirlisi birincisi, ən pisi sonuncusudur, qadınlar üçün isə səflərin ən xeyirlisi sonuncusu, ən pisi isə birincisidir.”

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, o, belə söyləmişdir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Kişilər üçün səflərin ən xeyirlisi birincisi, ən pisi sonuncusudur, qadınlar üçün isə səflərin ən xeyirlisi sonuncusu, ən pisi isə birincisidir.”

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, imama yaxın olduqlarına, onun qiraətinə qulaq asdıqlarına və qadınlardan uzaq olduqlarına görə kişilər üçün namazda ən xeyirli, ən savablı və fəzilətli səff birincisidir. Onun ən pisi, savab və fəzilət baxımından ən az olanı və İslam şəriətinin tələb etdiyindən ən uzaq olanı sonuncusudur. Qadınların ən xeyirli səfəri sonuncu səfərdir. Çünki bu, onlar üçün daha gizlidir və kişilərə qarışmaqdan, onları görməkdən və onlara fitnə olmaqdan daha uzaqdır. QQadınların səflərinin ən pisi isə kişilərə yaxınlığı və fitnəyə məruz qalması səbəbindən birincisidir.

http://www.sunnah.global/hadeeth/az/show/11299